http://www.amu.edu.az

# Təbib

Təsisci: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 - cü ildən çıxır. № 09 (1584) 15 may 2014 - cü il Qiymәti 40 qəpik



## Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91 illiyinə həsr edilmiş "Təbabətin aktual problemləri" mövzusunda elmi konfrans keçirilmişdir 2

Bu sayımızda



Səhiyyə naziri ATU-nun Stomatoloji Klinikasının nəzdində yeni tikilən tədris mərkəzində olub 3



## MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN TİBB UNİVERSİTETİNİN BƏZİ MƏQAMLARININ ESKİZLƏRİNƏ DAİR 4-5

Azərbaycan Tibb Universitetinin rəhbərliyi

## 10 May -Gül bayramı

münasibətilə universitet əməkdaşlarını təbrik edir, onlara xoşbəxtlik və firavanlıq arzulayır!



BAYRAMINIZ MÜBARƏK!

# Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91 illiyinə həsr edilmiş "Təbabətin aktual problemləri" mövzusunda elmi konfrans keçirilmişdir

**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91- illiyinə həsr edilmiş "Təbabətin aktual problemləri" mövzusunda elmi tədqiqat işlərinin yekunlarına dair konfrans keçirilmişdir.**

Mayın 7-də ATU-nun Tədris Cərrahiyyə Klinikasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-illiyinə həsr edilmiş "Təbabətin aktual problemləri" mövzusunda elmi-tədqiqat işlərinin yekunlarına dair konfrans keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə ulu öndər Heydər Əliyevin klinikanın foyesindəki barelyefinin önünə gül dəstələri düzmüş və xatirəsini ehtiramla yad etmişlər.



Klinikanın zalında davam edən tədbiri universitetin rektoru, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov açaraq ümummilli lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısında əvəzsiz xidmətlərindən, elmə və təhsilə, xüsusilə səhiyyə sahəsinə göstərdiyi diqqət və qayğıdan, tibb müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi və əhalinin sağlamlığı, peşəkar həkim kadrlarının hazırlanması istiqamətində fəaliyyətindən danışmışdır.

Unudulmaz şəxsiyyət, dərin zəka sahibi Heydər Əliyevin Azərbaycan elminin və təhsilinin himayədarı olduğunu, bu sahədə çalışanlara, xüsusilə səhiyyə işçilərinə həmişə diqqət və qayğı göstərdiyini xatırladan rektor demişdir ki, ulu öndərin ömrünün hər günü dövlətinə və millətinə xidmətlə keçmişdir.

Rektor eyni zamanda bildirmişdir ki, adı tarixdə əbədiləşən dünya şöhrətli siyasətçi Heydər Əliyevin ölkəmizin dövlət müstəqilliyi bərpa edildikdən sonra iki dəfə ATU-da olması, müəllim və tələbələr qarşısında proqram xarakterli çıxışı və gələcək həkimlərə dəyərli məsləhətlər verməsi universitetin tarixində silinməz izlər qoymuşdur.

Ə.Əmiraslanov diqqətə çatdırmışdır ki, ulu öndərin səyi nəticəsində 1998-ci ildə ATU-nun 11 mərtəbəli yeni tədris binası tikilib istifadəyə verilmişdir. Azərbaycanda səhiyyənin inkişafı, universitetin maddi-texniki bazasının möhkəmləndirilməsi və ölkəmizdə tibb kadrlarının hazırlanması məhz ulu öndərin adı ilə bağlıdır.

ATU-nun stomatoloji və onkoloji klinikalarının ümummilli lider Heydər Əliyevin böyük qayğısı sayəsində yaradıldığını diqqətə çatdıran rektor vurğulamışdır ki, onun layiqli davamçısı Prezident İlham Əliyevin dəstəyi ilə inşa olunmuş universitetin çoxprofilli terapevtik klinikası ən müasir avadanlıqla təchiz olunaraq əhaliyə dünya standartlarına uyğun səviyyədə tibbi xidmət göstərir.





Ulu öndərin müəyyənləşdirdiyi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayan Ə.Əmiraslanov bildirmişdir ki, fərəhli haldır ki, cənab İlham Əliyev 2008-ci il mart ayının 13-də daha bir sərəncam imzalamışdır. Bu sərəncamla Tədris-Cərrahiyyə Klinikasının yaradılmasına və tikintisinə başlanılmış, 2013-cü il sentyabrın 12-də istifadəyə verilmişdir: İndi artıq ATU nun Tədris-Cərrahiyyə Klinikası da ulu öndərin bünövrəsini qoyduğu Azərbaycan Tibb Universiteti klinikaları sırasına daxil olmuşdur.

Sözünə davam edən rektor əlavə etdi ki, ümummilli liderimizin Azərbaycan səhiyyəsinin, eləcə də Azərbaycan tibb elmi və tibb təhsili sisteminin dayanıqlı və sabit inkişafının təminatına işıq salan ideyaları heç vaxt sönməz və tükənməz enerji mənbəyimiz, zəngin xəzinəmizdir.

Ulu Öndərin müəyyənləşdirdiyi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini vurğulayan Ə.Əmiraslanov bildirmişdir ki, paytaxt Bakıda və regionlarda yeni tikilən və əsaslı təmirdən çıxan səhiyyə ocaqlarının ən müasir tibb avadanlıqları ilə təchiz edilməsi bunun əyani təzahürüdür: «Ümummilli lider Heydər Əliyevin 91 illik yubileyi Azərbaycanın hər guşəsində, bütün idarə və müəssisələrdə, eləcə də azərbaycanlıların yaşadıqları xarici ölkələrdə böyük təntənə ilə qeyd olunmaqdadır. Bu tədbirlər tarixi şəxsiyyət olan Heydər Əliyevin misilsiz xidmətlərinə qədirbilən xalqımız tərəfindən verilən qiymətin, sonsuz ehtiram və sevginin, inamın təzahürüdür. Ulu öndər Heydər Əliyev ardıcıl və məqsədyönlü dövlətçilik və siyasi fəaliyyəti ilə müstəqil Azərbaycan dövlətinin banisi, xilaskarı və qurucusu olmaqla bərabər, həm də XX əsrin dünya siyasətində silinməz izlər qoymuş tarixi şəxsiyyətdir. Adı tarixdə əbədiləşən dünya şöhrətli siyasətçi Heydər Əliyevin ölkəmizin dövlət müstəqilliyi bərpa edildikdən sonra ATU-da müəllim və tələbələr qarşısında proqram xarakterli çıxışı və gələcək həkimlərə dəyərli məsləhətlər verməsi universitetin tarixində silinməz izlər qoymuşdur. Buna görə də hər il universitet əməkdaşlarının elmi-tədqiqat işlərinin yekunlarına dair ənənəvi konfransı bundan sonra da ulu öndərin doğum günü ərəfəsində keçirəcəkdir».

Onu da qeyd edək ki, Azərbaycan Tibb Universiteti kollektivi ulu öndərimiz Heydər Əliyevin anadan olmasının 91-ci ildönümü münasibətilə mayın 2-də ATU-nun Tələbə Elmi Cəmiyyəti tərəfindən təşkil edilmiş tələbələrin və gənc həkimlərin I Beynəlxalq elmi konqresi, mayın 7-də isə Azərbaycan Tibb Universiteti əməkdaşlarının beynəlxalq elmi-praktik konfransı keçirilmişdir.

Sonra universitetin elmi işlər üzrə prorektoru, professor İbrahim İsayev konfransın plenar hissəsinin gündəliyini elan edərək sözü məruzəçilərə verdi.

Plenar iclasda universitetin professorları Nuru Bayramov *"Laparoskopik təcrübəmizin bu günü və perspektivləri"*, Qalib Qarayev *"Reperfuzion sindrom və ondan törənmiş orqan çatmazlığının patofizioloji aspektləri"* , Habil Muradov *"Yumşaq toxumaların bədxassəli şişlərində damar endotelial faktorunun pronostik əhəmiyyəti"*, Çingiz Rəhimov *"Üz- çənə nahiyyəsinin defekt və deformasiyaları olan xəstələrin bərpaedici əməliyyatlarının planlaşdırılmasında yeniliklər"*, İsfəndiyar İsmayılov *"Ümumi cərrahiyyə təcrübəsində Ketamin preparatının yeri"* və dosent Ramin Bayramlı *"Nozokomoial infeksiya törədicilərində antibiotiklərə rezistentlik problemləri"* mövzusunda təbabətin ən aktual problemləri ilə bağlı məruzələri dinlənilmiş və müzakirələr aparılmışdır.

**MƏNSUR**

# Əməkdaşlığa dair müzakirələr aparılıb

**Mayın 8-də bir sıra nüfuzlu ali məktəblərin nümayəndələri Azərbaycan Tibb Universitetinin qonağı olub. Nümayəndə heyətinə Harvard Universiteti Boston Uşaq Xəstəxanası, İnkişaf qüsurları kafedrasının direktoru Kerim Munir, Hacettepe Universiteti, Xarici dillər fakültəsinin direktoru professor Tuncay Ergene, Ankara Universitetinin Uşaq Psixiatriyası kafedrasının dosenti Özgür Önər daxildir.**





ATU-nun elmi işlər üzrə prorektoru, professor İbrahim İsayevin iştirakı ilə baş tutan görüşdə Azərbaycan universitetlərinin "Global Mental Health &Neurodevelopment Reseach Training İnitiatives" layihəsinə qoşulması haqqında müzakirələr aparılıb. Psixiatriya kafedrasının ATU tərəfindən həmin layihədə iştirak edəcəyi önə sürülüb.

Görüş zamanı İ.İsayev qonaqlara universitet, ATU-nun klinikalarının fəaliyyəti haqqında ümumi məlumat verərək "Global Mental Health &Neurodevelopment Reseach Training İnitiatives" layihəsində iştirakçılığın ATU üçün böyük əhəmiyyət daşıdığını bildirib. Müzakirələrdə psixiatriya kafedrasının müdiri, professor Gəray Gəraybəyli layihənin həyata keçirilməsi yollarından danışıb.

Görüşdə qonaqlarla gələcək əməkdaşlığın təfərrüatları haqqında da müzakirələr aparılıb.

**ATU-nun mətbuat xidməti**

# Səhiyyə naziri ATU-nun Stomatoloji Klinikasının nəzdində yeni tikilən tədris mərkəzində olub

**Mayın 6-da səhiyyə naziri Oqtay Şirəliyev Azərbaycan Tibb Universitetinin (ATU) rektoru, millət vəkili, akademik Əhliman Əmiraslanovla birgə ATU-nun Stomatoloji Klinikasının nəzdində yeni tikilən Stomatoloji Tədris Mərkəzinə baxış keçirib.**



Stomatoloji Klinikanın direktoru Alqış Səfərov mərkəzdə quraşdırılan yeni, məxsusi olaraq mərkəz üçün Avropadan gətirilən avadanlıqlar barədə məlumat verib. Onun sözlərinə görə, dünyanın yalnız aparıcı ölkələrinin tibb müəssisələrində olan bu ava-



danlıq tələbələrin nəzəri və praktiki biliklərini təkmilləşdirməkdə müstəsna əhəmiyyətə malikdir.

Səhiyyə naziri Oqtay Şirəliyev Stomatoloji Mərkəzdə görülən işləri, klinikanın təchizatını yüksək dəyərləndirdiyini deyib. Bildirib ki, klinikanın bütün avadanlığı tibb elminin ən son nailiyyətlərinə cavab verir və bu cür müasir, modern texnoloji avadanlıqlarla çalışmaq rezidentlər üçün müsbət təcrübə yaradacaq.

Daha sonra isə nazir O.Şirəliyev və rektor Ə.Əmiraslanov ATU-nun 4 saylı tədris binasındakı vəziyyət, xüsusilə elektron mikroskopiya laboratoriyasında quraşdırılan yeni avadanlıqla tanış olublar. Məlumat verilib ki, burada dünya universitetlərinin laboratoriyalarında istifadə olunan tam avtomatlaşdırılmış, ən müasir analizatorlar yerləşdirilib.

Nazirlə görüşdə stomatologiya fakültəsinin dekanı, professor Zöhrab Qarayev, uşaq stomatologiyası kafedrasının müdiri, professor Rəna Əliyeva, insan anatomiya kafedrasının müdiri, professor Vaqif Şadlinski, kafedranın professoru Mübariz Allahverdiyev, epidemiologiya kafedrasının müdiri, professor İbadulla Ağayev, biokimya kafedrasının müdiri, professor Arif Əfəndiyev və digərləri iştirak ediblər.

# Bakıda tibb tələbələrinin və gənc həkimlərin 1-ci beynəlxalq konqresi keçirilib

**Mayın 2-də Azərbaycan Tibb Universitetində (ATU) tibb tələbələrinin və gənc həkimlərin 1-ci beynəlxalq konqresi öz işinə başlayıb. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş konqresə ATU-nun müəllim və tələbələri, dünyanın 10-a yaxın ölkəsinin aparıcı universitetlərinin professor və tələbələri qatılıblar. Tədbirdə əvvəlcə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib. Sonra Azərbaycanın tarixi keçmişindən və bu günündən, zəngin mədəniyyəti və tarixi-memarlıq abidələrindən bəhs edən film nümayiş etdirilib.**






Konqresin açılış mərasimində çıxış edən ATU-nun rektoru, Milli Məclisin deputatı, akademik Əhliman Əmiraslanov müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri Heydər Əliyevin doğum günü ərəfəsində ölkəmizdə, eləcə də rəhbərlik etdiyi təhsil müəssisəsində bir çox beynəlxalq əhəmiyyətli tədbirlərin keçirilməsinin artıq ənənəyə çevrildiyini bildirib. Bunun ulu öndərin təhsilə və səhiyyəyə göstərdiyi qayğı ilə bağlı olduğunu diqqətə çatdırıb: "Bu gün açılışına toplaşdığımız tələbələrin və gənc həkimlərin ilk beynəlxalq konqresi də məhz bu ərəfəyə təsadüf edir. Mənə elə gəlir burada oturanların hər biri çox gözəl bilir ki, ulu öndər gəncliyə son dərəcə yüksək qiymət verirdi və böyük qayğı göstərirdi. Onun gəncliyimizə qayğısı sayəsində bir çox yüksək ixtisaslı mütəxəssislər yetişdirilmişdir ki, bu gün onlar Azərbaycana layiqincə xidmət edirlər. Biz çox şadıq ki, ulu öndərin gəncliyə, təhsilə, elmə, səhiyyəyə, mədəniyyətə olan qayğısı və diqqəti möhtərəm Prezidentimiz tərəfindən uğurla davam etdirilir. Bu konqres də cənab İlham Əliyevin bu sahəyə olan diqqətinin bariz nümunəsidir. Tələbə Elmi Cəmiyyətində belə konfranslar hər il keçirilir. Ancaq bu il belə qərara gəldik ki, bu konfrans tək universitet çərçivəsində yox, beynəlxalq səviyyədə olsun. Artıq bu beynəlxalq konfrans reallaşıb. Dünyanın 10-a qədər ölkəsindən, xeyli yüksək ixtisaslı, öz sahəsində tanınmış professor-müəllim heyəti və tələbələr gəliblər. Azərbaycana gəlmiş bu mütəxəssislər, tələbələr ölkəmizin inkişafını, təhsilimizin müvəffəqiyyətlərini görürlər və öz ölkələrində Azərbaycan haqqında fikir formalaşdırırlar. Gənclərimizin elmi tədqiqatlarının nəticələrinin müzakirəsi sayəsində diskussiya mədəniyyəti formalaşır".

TEC-in elmi rəhbəri, professor Amalya Əyyubovanın əməyini yüksək qiymətləndirən rektor mayın 3-dək davam edəcək konqresdə təbabətin aktual problemlərinə həsr olunmuş elmi müzakirələrin aparılacağını deyib: "Konqresdə həmçinin Türkiyə, İsrail və Rusiyanın nüfuzlu universitetlərinin professorlarının onkologiya, cərrahiyyə, mikrobiologiya, histologiya, stomatologiya, əczaçılıq, pediatriya, genetika, tibbi statistika və ümumi mövzular üzrə elmi məruzələri dinləniləcəkdir. Eyni zamanda, yerli və xarici tələbələr təqdimatlarla çıxış edəcəklər. Bu isə ölkələrimiz arasında elmi əlaqələrin qurulmasında böyük əhəmiyyət daşıyır".

Qeyd edilib ki, gənc həkimlərin elmi tədqiqatlara cəlb olunmasında və onlarda diskussiya mədəniyyətinin formalaşmasında belə tədbirlərin böyük əhəmiyyəti vardır.

Konqresdə iştirakından məmnun qaldığını bildirən Türkiyənin İstanbul Universitetinin professoru Cavit Avçi qeyd edib ki, dəfələrlə Türkiyədə olan TEC-in sədri, dosent Müşfiq Həsənovla konqres öncəsi geniş fikir mübadiləsi aparıblar. Bakıda özünü öz evindəki kimi hiss etdiyini söyləyən türkiyəli professor təhsil əlaqələrimizin səmərəli olacağına əminliyini vurğulayıb.

Rusiya Federasiyasının Tümen Dövlət Tibb Universitetinin professoru Vitali Bıçkov çıxışında dünya ölkələrinin tibb təhsili üzrə təcrübə mübadilələrinin mühüm rolunu qeyd edib. Azərbaycanın sürətlə inkişaf etdiyini, ATU-nun tələbələri ilə ünsiyyətdən zövq aldığını bildirən rusiyalı alim ATU-ya xatirə hədiyyələri təqdim edib.

Konqresin bədii hissəsində Azərbaycan musiqisinin ölməz inciləri təqdim olunub. Dahi Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan" operasından Gülçöhrənin ariyasını və digər musiqi parçalarını iştirakçılar alqışlarla qarşılayıblar.

Konqres öz işini plenar iclaslarda davam etdirib.

**Arif MƏMMƏDLİ**

# Tələbələrimiz Nabranda konfransda iştirak edəcək

Azərbaycan Tibb Universitetinin 5 fəal tələbəsi Nabranın "Təhsil" istirahət mərkəzinə yola düşüb. V kurs tələbəsi Araz İsmayılovun rəhbərlik etdiyi qrupa Sərxan Şükürov, Humay Mehdiyeva, Günel Salmanova və Şəmsi Nuriyev daxildir.

Onlar "Vətənim Azərbaycan" mövzusunda vətənpərvərlik tərbiyəsinə həsr olunmuş konfransda iştirak edəcəklər.

"Vətənim Azərbaycan" konfransı Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsi tərəfindən təşkil olunur. 14-16 may 2014-cü il tarixlərində baş tutacaq tədbirin əsas məqsədi gənclərdə vətənpərvərlik hisslərinin gücləndirilməsi, bu mövzuda maarifləndirici söhbətlərin aparılması və gənclərin bu məsələ ətrafında şəbəkələşməsinə yardım göstərilməsi, onların dövlət gənclər siyasətinə öz töhfələrini verməsini stimullaşdırmaqdır.



**Fotolar Cənnətalı Çingizindir**

## Azərbaycan Tibb Universiteti – 84

**Azərbaycan Respublikasının 28 may 1918-ci ildən 28 aprel 1920-ci il tarixinə qədər cəmi 23 ay davam edən müstəqilliyi tarix salnaməsinə qızıl hərflərlə yazılan bir dövr olsa da, Azərbaycan xalqı 70 ilə yaxın müddətdə bolşevik işğalının qurbanına çevrildi. Bu illər ərzində ərazi bütövlüyümüzlə birlikdə elmimiz, təhsilimiz, səhiyyəmiz, iqtisadiyyatımız, mədəniyyətimiz, ədəbiyyatımız, incəsənətimiz, bütün mənəvi dəyərlərimiz, yeraltı və yerüstü sərvətlərimiz məhrumiyyətlərə, talana, qarətə, müstəmləkə tabeçiliyinə məruz qalaraq külli miqdarda itkilərlə üzləşdi.**

# MÜSTƏQİLLİK İLLƏRİNDƏ AZƏRBAYCAN TİBB

1991-ci ildə Azərbaycanın 70 il müddətində daşıdığı bolşevik-şovinist boyunduruğunu qıraraq azadlığa çıxması ilk vaxtlar sırf rəmzi məna daşıdı və ağır həyat imtahanı qarşısında qaldı. İlk müstəqillikdə olduğu kimi, ikinci müstəqilliyin də ilk illərində Azərbaycanın düşmənləri onun müstəqilliyini «beşikdə ikən boğmağa», onu məhv etməyə çalışırdılar.

1993-cü il iyunun 15-də Azərbaycanın müstəqilliyinin tükdən asılı olduğu bir dövrdə ümummilli lider Heydər Əliyevin yenidən ölkəmizdə siyasi hakimiyyətə qayıdışı bütövlükdə Azərbaycanla birlikdə onun elmini, təhsilini, mədəniyyətini, incəsənətini də xilas etdi. Xilas olunanlar arasında Azərbaycan səhiyyəsinin, Azərbaycan tibb elmi və tibb təhsili sisteminin də olması bu sahələrin nümayəndələrini ürəkdən sevindirdi, onlar da özlərində yeni ruh yüksəkliyi, yeni güc, yeni qüvvə hiss etdilər. Bizə elə gəlirdi ki, belə yüksək əhval-ruhiyyə Azərbaycan Tibb Universiteti əməkdaşları arasında daha qabarıq şəkildə cərəyan edir. Bəlkə də bu onunla əlaqədar idi ki, 1991-ci il fevralın 4-də N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunun N.Nərimanov adına Azərbaycan Tibb Universiteti statusu əldə etməsindən sonra ilk dəfə bu təhsil ocağında inamlı addımlar atılır, Heydər Əliyev ideyalarının gələcək qələbələrinin parlaq üfüqləri aydın sezilməyə başlayırdı. 1993-cü ildən etibarən Azərbaycan Tibb Universitetində keçirilən hər bir elmi şura iclasında ölkəmizin yeganə ali tibb təhsili ocağı olan bu ali məktəbin rektoru akademik Əhliman Əmiraslanov Azərbaycanın Dövlət müstəqilliyi haqqında səmimi söhbətlər aparır, "müstəqilliyi insan mənəviyyatının ən dəyərli qidası» adlandırırdı. Azərbaycandan beyin axınının sürətləndiyi çətin bir dövrdə Moskvadakı rahat iş yerini qoyub Bakıya gələn, xalqının, millətinin ağır günlərində ona professional həkim yardımı göstərməyə tələsən əsl Vətən oğlu Əhliman Əmiraslanov hər çıxışında əməkdaşlara müvəqqəti çətinliklərin ömrünün az olacağından danışır, müstəqilliyimizin təminatçısı dahi Heydər Əliyevin ətrafında sıx birləşməyin vacibliyini onlara inandırıcı dəlillərlə izah edirdi. Bu çıxışların həmin dövrdəki stenoqrafik yazıları ATU-nun arxivində hazırda da saxlanılır. Əhliman müəllimin dövlət müstəqilliyimizə həsr etdiyi səmimi çıxışlarının gücü, qüvvəsi onda idi ki, əməkdaşlar da, elmi şura üzvləri də bu səmimi çıxışları eyni səmimiliklə qəbul etmək məfkurəsində idilər və onlar bu çağırışlara adekvat reaksiya verərək ulu öndərin ideyaları ətrafında sıx birləşir, professional borclarını ləyaqətlə yerinə yetirirdilər.

İndi o vaxtdan 20 ildən artıq bir vaxt keçib və biz ATU-nun yaranmasının 84-cü ildönümünü yeni nailiyyətlərlə qarşılayırıq.

XX əsrin 90-cı illərinin birinci yarısında – 1994-cü il sentyabrın 20-də ulu öndər Heydər Əliyevin təşəbbüsü və təşkilatçılığı ilə Bakı-Tbilisi-Ceyhan neft-boru kəmərinin çəkilişi ilə əlaqədar müqavilənin - «Əsrin müqaviləsinin» imzalanması müstəqil ölkəmizin iqtisadiyyatının gələcək inkişafının möhkəm bünövrəsini qoydu. Bu müqavilədən ruhlanan Azərbaycan Tibb Universiteti rəhbərliyi yeni layihələr hazırlayır, ölkəmizin tibb elminin, tibb təhsili sisteminin islahatlarla inkişaf etdirilməsinin yollarının axtarışlarını uğurla davam etdirirdi. Yadımdadır ki, Əhliman müəllim 1993-cü ildən etibarən, demək olar ki, hər dəfə elmi şura iclası keçirilərkən müzakirə olunan mövzular üzrə yekun nitqi söyləyir və öz nitqində mütləq tibb elmi və tibb təhsili sisteminin inkişafını, xarici ölkələrdə olduğu kimi, Azərbaycan Tibb Universitetinin də öz klinikalarının olması ilə əlaqələndirirdi. O, deyirdi ki, «Nə qədər ki, ATU-nun öz klinikaları yoxdur, ölkəmizdə tibb təhsili sisteminin mükəmməl inkişaf etməsi, beynəlxalq standartlara uyğunluğu haqqında tam fikir söyləmək o qədər də inandırıcı olmayacaq və bu inkişafa nail olmaq üçün Azərbaycan Tibb Universiteti mütləq özünəməxsus klinikalara malik olmalıdır". Ümumiyyətlə, Əhliman müəllimin elmi şura iclaslarındakı çıxışlarında iki mühüm məsələ həmişə onun çıxışlarının anna xəttini təşkil edirdi. Bunlardan biri qeyd etdiyimiz kimi, xarici ölkələrdəkinə uyğun olaraq ATU-nun özünün klinikalarının olmasından, digəri isə bu təhsil ocağında diplomdansonrakı hazırlığın SSRİ dövründən qalma internatura sistemi ilə deyil, beynəlxalq aləmdə daha mükəmməl sayılan rezidentura sistemi ilə aparılmasına keçidin təşkilindən ibarət idi. ATU-nun ayda bir dəfə keçirilən elmi şura iclaslarının hər birində müzakirə olunan məsələlərin biri mütləq tibb təhsili ilə bağlı olurdu və ona görə də şahidi olduğum iclasların protokollarını stenoqramdan çap vərəqinə köçürdüyüm üçün inamla deyirəm ki, Əhliman müəllim hər iclasda bu məsələləri həmkarları ilə dönə-dönə ətraflı müzakirə edir, onların birgə kollegial həllinə çalışırdı. Rektor bu məsələlərdən danışarkən ilk növbədə birinci cərgədə əyləşmiş akademik Böyükkişi Ağayevə, akademik Adilə Namazovaya, digər nisbətən yaşlı professorlara müraciət edir, onların bu məsələyə münasibətləri ilə maraqlanırdı. Çünki o dövrdə, yəni müstəqilliyimizin ilk illərində alimlərimizin beynəlxalq əlaqələri o qədər də sıx deyildi, yalnız akademiklərin və tək-tək professorların xarici ölkələrin ali tibb təhsili müəssisələri ilə, müvafiq tibb alimləri ilə az-çox əlaqələri var idi və onlar xarici ölkələrdə elmi ezamiyyətdə olduqdan sonra həmişə hesabat xarakterli çıxışlar edir, təəssüratlarını elmi şura üzvləri ilə bölüşürdülər. Onlar Əhliman müəllimin mütərəqqi ideyalarını dəstəkləyərək təsdiqləyir və onun ideyalarının reallığa çevriləcəyini ümidlə gözləyirdilər. Lakin bütün bunlara baxmayaraq 90-cı illərin iqtisadi çətinlikləri illərində ölkə miqyasında maddi cəhətdən bunu həyata keçirmək mümkün deyildi. Əhliman müəllim bir nüansı da heç vaxt nəzərdən qaçırmırdı və qeyd edirdi ki, ölkəmizin iqtisadi qüdrəti tədricən möhkəmləndikcə biz mütləq bu arzularımıza çatacağıq. Xoşbəxtlikdən bu belə də oldu.

Azərbaycan Tibb Universiteti 90-cı illərin ikinci yarısının ilk illərində, daha doğrusu 1996-cı ildə ulu öndərin bu təhsil ocağına, həkimlərə, səhiyyə işçilərinə olan diqqət və qayğısı sayəsində Dünya Təhsil Birliyinin Londonda çıxan Beynəlxalq reyestrinə daxil edildi. Bu, MDB ölkələri arasında Rusiya Federasiyası və Ukraynadan sonra üçüncü göstərici idi. Bundan sonra Azərbaycan Tibb Universiteti akademik Ə.T.Əmiraslanovun rəhbərliyi altında Qaradəniz Hövzəsiətrafı Ali Məktəblər Birliyinin, Beynəlxalq Universitetlər Assosiasiyasının və Avropa Ali Məktəblər Assosiasiyasının tam hüquqlu üzvü seçildi.

Əhliman müəllim ulu öndərlə görüşlərinin birində ATU-da tədris binalarının çatışmadığı barədə mülahizələrini söyləmiş və hələ SSRİ dövründə ümummilli liderin özü tərəfindən bünövrəsi qoyulan 11 mərtəbəli tədris binasının tikintisinin davam etdirilməsi haqqında fikirlərini bildirmişdi. Ulu öndər ölkə iqtisadiyyatının ən çətin dövründə belə ölkədə tibb təhsilinin yaxşılaşdırılması naminə bu məsələni diqqət mərkəzində saxlayaraq binanın inşasının davam etdirilməsinə qayğı ilə yanaşdı, bu istiqamətdə müvafiq göstərişlər verdi. 1998-ci il sentyabrın 28-də binanın açılışı mərasimində ulu öndər dərin məzmunlu tarixi nitq söylədi, sonra Əhliman müəllimlə birlikdə binada yerləşdirilmiş bütün kafedralarla tanış oldu, kollektivə öz dəyərli məsləhətlərini verdi. Bundan sonra 2000-ci ildə akademik Ə.T.Əmiraslanov çoxdan bəri elmi şura iclaslarında müzakirəyə çıxardığı ATU-nun öz klinikalarının olması məsələlərini ulu öndərə açıb söylədi və bu məsələni yüksək dəyərləndirən ulu öndər ATU-nun tarixində ilk dəfə Stomatoloji Klinikanın yaranmasına göstəriş verdi. Tezliklə ATU-nun ilk klinikasının yaradılması reallaşdı. Bununla da akademik Ə.T.Əmiraslanovun son 10 ilin hər günü, hər saatında qəlbinin dərinliklərində ölçüb-biçdiyi, hərtərəfli hazırladığı ideyanın təməl daşları ulu öndərin qayğısı sayəsində sıralanmağa başladı.



2006-2007-ci dərs ilinin əvvəlində ümummilli liderimizin sədaqətli davamçısı cənab Prezident İlham Əliyevlə olan görüşlərində akademik Əhliman Əmiraslanov ulu öndərin bünövrəsini qoyduğu ATU-nun öz klinikalarının davamının gəlməsi haqqında olan fikirlərini cənab Prezidentə çatdırdı və ondan bir neçə ay sonra – 2007-ci ilin iyun ayında ölkə başçımızın göstərdiyi diqqət və qayğı sayəsində ATU-nun sayca ikinci klinikası olan Onkoloji Klinika təşkil edilərək müəllim və tələbələrin, xəstə kontingentinin istifadəsinə verildi. Hər iki klinika dünya standartlarına uyğun ən müasir cihazlar, aparatlar, avadanlıqlarla təchiz olunduğuna görə bu ixtisaslar üzrə xarici ölkələrdə müalicəyə gedənlərin sayı kəskin surətdə

azaldı. Onkoloji Klinikanın açılışından sonra akademik Ə.T.Əmiraslanov bununla da kifayətlənmədi və Azərbaycan tibb elminin, tibb təhsili sisteminin yeniləşməsi naminə yenidən cənab Prezidentə xahişnamə ilə müraciət edərək terapiya yönümlü kafedraların şəhərin müxtəlif xəstəxanalarında yerləşməsinin tibb təhsilinin tədrisinin gedişində yaratdığı çətinliklərdən danışdı. Qısa müddətdə 2007-ci il sentyabrın 11-də cənab Prezident bu müraciəti dəyərləndirərək, ATU-nun Tədris-Terapevtik Klinikasının inşasına başlanılması haqqında tarixi sərəncam imzaladı. Bundan cəmi bir həftə sonra – 2007-ci il sentyabrın 18-də cənab İlham Əliyev və onun nın açılışı oldu. Açılışda cənab Prezidentlə birlikdə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva da iştirak etdi. Cənab Prezidentin açılış mərasimindəki çıxışı diqqətlə dinlənildi və daha sonra kafedralarla tanışlıq başlanıldı.

Əhliman müəllimin xalqımızın övladlarının gələcək tibb təhsilinin tədrisinin yaxşılaşdırılması naminə planlaşdırdığı perspektiv layihələrin ardıcıl olaraq yerinə yetirilməsi ATU-nun bütün əməkdaşlarının ürəkdən gələn sevincinə səbəb olmuşdu. Binanın tikintisinə cavabdeh olan bütün tikinti işçiləri Tədris-Cərrahiyyə Klinikasının tikintisinin başa çatdırılmasına ürəkdən sevinirdilər. Sevinənlər arasında hamının səhv qavrayan bir qrup tələbələrlə akademik Ə.T.Əmiraslanovun səmimi görüşləri oldu. Akademik rezidentura sisteminin məqsəd və funksiyalarını sadə dildə tələbələrə başa salandan sonra onların bu prosesə münasibəti tamam dəyişdi. Ümumiyyətlə Əhliman müəllim tələbə-gənclərlə yaxın ünsiyyətdə olmağı xoşlayır, onların problemləri ilə yaxından maraqlanır, hər hansı bir problem yaransa, dərhal aradan qaldırılır. Akademik hər toplantılarda müəllimlərə tapşırır ki, tələbələrə öz övladları gözüynən baxsınlar. Belə münasibət əvəzsiz qalmır. Əhliman müəllim tələbələrə, rezidentlərə nə qədər xoş münasibət göstərirsə, tələbə-gənclər də ona qarşı olan səmimi diqqəti cəlb edən mikrobiologiya və immunologiya kafedrasının professoru Zakir müəllim Qarayev, mənim fikrimcə, müzakirə zamanı etdiyi çıxışının sonunda verdiyi dərin mənalı bir sualı ilə diqqəti cəlb etdi. O, çıxışının sonunda qeyd etdi ki, hər şeyi başa düşürəm, ancaq bir şeyi başa düşə bilmədim ki, necə oldu ki, bu klinikalar birdən-birə bir-birinin ardınca belə peyda oldular? Bunu başa düşə bilmirəm. Adətən, hər bir suala dərhal məntiqi cavabları ilə aydınlıq gətirən akademik Ə.T.Əmiraslanovun bu dəfə sualı cavabsız qoyması bəlkə də çoxlarında yeni suallar doğurdu. Lakin mən onun səbəbini dəqiq gördüm. Əhliman müəllim təvazökarlıqdan bu suərsəyə gəlməsi, diplomdansonrakı təhsilin tədrisinin rezidentura sistemi ilə aparılması üçün, eləcə də tibb elmi və tibb təhsilinin inkişafının müasir innovativ texnologiyalar əsasında həyata keçirilməsi üçün keçirdiyi daxili hisslərin dolğunluğunu, onların yaranmasının həyəcanlarını, dövlət qayğısına yanaşma və lazımi səviyyədə dəyərləndirmə tərzinin incəliklərini, ən ekstremal hallarda belə nümayiş etdirdiyi səbir, təmkin, mədəni səviyyə, təvazökarlıq aliliyinin etik normalarının mizanlarını təhlil və təsvir etməyə risk etmədim, çünki bu olduqca çətin və məsuliyyətli bir məsələdir. Bəlkə də, nə vaxtsa, bunlar haqqında da geniş söhbət açılacaq və təbii ki, bu gün tam əminliklə

# UNİVERSİTETİNİN BƏZİ MƏQAMLARININ ESKİZLƏRİNƏ DAİR

xanımı Heydər Əliyev Fondunun prezidenti, UNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyeva ATU-ya gələrək Tədris-Terapevtik Klinikanın təməlinin qoyulmasında iştirak etdilər. Cənab Prezident təməlqoyma mərasimində geniş nitq söylədi və qeyd etdi ki: ***"Bir şeyi demək kifayətdir ki, Azərbaycanda aparılan iqtisadi islahatlar, siyasi islahatlar, ulu öndərin siyasi xətti bu gün uğurla davam etdirilir və ölkəmizin iqtisadi inkişafı artdıqca, əlbəttə ki, bütün sosial məsələlər daha da tezliklə öz həllini tapacaqdır... Mən bu gün çox şadam ki, biz birlikdə bu gözəl, yeni korpusun təməlini qoyduq. Şübhə etmirəm ki, bu bina yaxın zamanlarda tikilib istifadəyə veriləcək, ən yüksək standartlara cavab verəcəkdir. Ondan sonra da nə kimi müraciətlər olarsa, mən onların hamısını yerinə yetirməyə hazıram... Əhliman müəllim, təxminən bir ay bundan əvvəl, bəlkə də bir az qabaq müraciət etmişdir. Qısa müddət ərzində qərar qəbul olundu, artıq təməl daşı qoyuldu. İndi Əhliman müəllim mənə deyir ki, cərrahiyyə korpusunun tikintisinə də böyük ehtiyac var. Biz bu məsələyə də baxacağıq və sizin bütün problemlərinizi həll edəcəyik".***

Cənab Prezident tezliklə cərrahiyyə korpusu məsələsinə də baxdı. Belə ki, 2008-ci il mart ayının 13-də cənab Prezident Tədris-Cərrahiyyə Klinikasının tikintisinə başlanılması haqqında sərəncam imzaladı.

2010-cu il oktyabrın 1-də ATU-nun Tədris-Terapevtik Klinikasının açılışı mərasimi keçirildi. Klinika hazırda dünyanın ən müasir tədris və müalicə mərkəzləri ilə rəqabət aparma bilmə iqtidarındadır. 2013-cü il sentyabrın 12-də isə möhtəşəm Tədris Cərrahiyyə Klinikasıdiqqətini özünə cəlb edən, bu fərəhli anın yolunu səbrsizliklə gözləyənlərdən biri və birincisi heç şübhəsiz ki, akademik Əhliman Əmiraslanov idi. Mən Əhliman müəllimin zahirən yox, daxilən-dərindən keçirdiyi sevincli anlarının şahidi kimi deyə bilərəm ki, akademik Tədris Cərrahiyyə Klinikasının açılışından hələ bir il öncə deyirdi ki, indi mənim ən böyük arzularımdan biri Tədris-Cərrahiyyə Klinikasının istifadəyə verilməsini görməkdir. O, bu arzusuna da, yəni cərrahiyyə yönümlü mütəxəssislərə, tələbə və rezidentlərə, burada şəfa tapacaq xəstələrə sevincli anlar yaşatmaq arzusuna çatdı. Bu klinikaların yaranması tarixi, hesab edirəm ki, Azərbaycan Tibb Universiteti tarixinin ayrılmaz bir hissəsinə çevrilib və ən dəyərli hadisə kimi, tarixin səhifələrinə əbədi həkk olunub. Bu klinikalardan gələn hər bir xoş xəbərin, böyüklüyündən-kiçikliyindən asılı olmayaraq bütün xoş məlumatların hamısının Əhliman müəllimi ürəkdən sevindirməsinin şahidi olmağın özü də böyük xoşbəxtlikdir. Bu sevincin incə ştrixlərinə biganə qalmaq, laqeyd yanaşmaq mümkünsüzdür. Ulu öndərin uzaqgörən siyasəti nəticəsində belə bir xoşbəxtlik Azərbaycan Tibb Universitetinin bütün əməkdaşlarına qismət oldu.

2011-2012-ci tədris ilində isə internatura sistemindən rezidenturaya keçid baş tutdu. Bu məsələnin reallaşması yolunda da müəyyən gərgin vəziyyətlər yaşandı. Lakin sonda ölkə Prezidentinin diqqət və qayğısı, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin böyük səyi və zəhməti sayəsində bu məsələ də özünün müsbət həllini tapdı. Rezidenturaya keçiddən bir neçə il əvvəl isə bu sistemin əsas məğzinin nədən ibarət olduğunu



rəğbət hisslərini heç vaxt gizlətmirlər.

İndi isə bu yazını yazmağımın səbəblərindən birini də oxucuların nəzərinə çatdırmaq istəyirəm. Bu yaxınlarda, daha doğrusu 2014-cü il aprel ayının 28-də elmi şura iclasında dinlənilən və müzakirə edilən əsas məsələ ATU-nun Tədris-Terapevtik Klinikasının direktoru əməkdar elm xadimi, professor Musayev Surxay müəllimin hesabat xarakterli məruzəsi olmuşdu. Professor S.N.Musayev klinikanın istifadəyə verilməsindən indiyə qədərki fəaliyyətinin əsas məqamlarını yüksək səviyyədə nümayiş etdirdiyi əyani görüntülərlə geniş auditoriyaya çatdırdı. Görülən işlərin miqyası barədə məruzə ətrafında çıxış edənlər geniş söhbət açdılar və hesabat həm şuranın sədri, həm də əməkdaşlar tərəfindən yüksək qiymətlə dəyərləndirildi. Özünün orijinal çıxışları ilə həmişə alın üstündən tez keçdi. Zakir müəllim isə onu elə belə sual xatirinə verməmişdi və hiss olunurdu ki, o həqiqətən sualın cavabının nədən ibarət olmasını eşitmək arzusundadır. Mən hesab etdim ki, bu suala prosesin şahidləri cavab versə daha münasib olar və hiss etdim ki, bu hər birimizin, o cümlədən mənim də borcumdur. Mən bu yazı ilə qısa da olsa Zakir müəllimin sualına cavab verməyə və mümkün qədər onu cüzi də olsa qane etməyə çalışdım və məntiqli sualı ilə məni bu yazını yazmağa, müəyyən məqamların eskizlərini cızmağa sövq etdiyinə görə hörmətli Zakir müəllimə dərin minnətdarlığımı bildirirəm. Cavabın "qısa" olduğunu deyirəm ona görə ki, mən yalnız aysberqin görünən tərəflərinin bəzi nüansları haqqındakı qeydləri nəzərə çatdırmağa çalışdım. Əhliman müəllimin ATU-nun bu möhtəşəm klinikalarının deyə bilərəm ki, onların hər biri haqqında gələcəkdə geniş söhbət açılmasına mütləq böyük ehtiyac yaranacaq. Dağ sellərindən süzülən şəlalələrin qarşısını almaq mümkünsüz olduğu kimi, o büllur damlalı nəcib hisslərin, nəcib duyğuların təsvirinin qarşısını almaq da mümkünsüz olacaqdır.

Qədim ənənələrə, yeni maddi-texniki bazalara, zəngin irsə malik Azərbaycan Tibb Universitetinin yaranmasının 84-cü ildönümü mübarək olsun!

Azərbaycan səhiyyəsinin, Azərbaycan Tibb Universitetinin, tibb elmi və tibb təhsili sisteminin böyük himayədarı dahi Heydər Əliyev ideyaları daim yaşasın və var olsun!

**Mübariz ALLAHVERDİYEV,**
*İnsan anatomiyası kafedrasının professoru*

# Professorun ustad dərsi

**◆ Mənə deyiləndə ki, professor Fəxrəddin Məmmədov ustad dərsi keçmək fikrindədir. Bu tədbirdə məmnunluqla iştirak etmək istədiyimi bildirdim. May ayının 1-də "İctimai fənlər" kafedrasında universitetin və kafedranın xeyli əməkdaşı mühazirə zalının qarşısında toplaşmışdı. Məlum oldu ki, professor ustad dərsi keçmək üçün hərbi tibb fakültəsinin I kurs tələbələrini seçmişdir. Buna baxmayaraq digər fakültələrin də yuxarı kurs tələbələrindən belə bir dərsdə iştirak etmək istəyənlər vardı. Mən bir daha şahidi oldum ki, Azərbaycan tarixinə, Vətən tariximizə tələbələr arasında nə qədər böyük maraq vardır. Hərbi fakültənin dekanlığından da nümayəndələr gəlmişdi. Səhv etmirəmsə, bu universitetimizdə ilk təşəbbüs idi.**





Professor Fəxrəddin Məmmədov **"Azərbaycan XIX əsrdə"** adlı mühazirə mövzusunu elan etdi və bildirdi ki, belə mövzuların müasir gəncliyə tədris edilməsinin ən birinci məqsədi onlarda vətənpərvərlik ruhunu tərbiyə etmək və yüksəltməkdir. Zala sükut çökmüşdü. Yalnız professorun səsi bir az da şairanə şəkildə eşidilirdi. Nitqinin əvvəlində o, xüsusi olaraq tələbələrin nəzərinə çatdırdı ki, Azərbaycan tarixi müstəqil dövlətçiliyimizin ən mühüm ideoloji sütunlarından biridir.

Professor nitqinin əvvəlində ulu öndərimiz Heydər Əliyevin müqəddəs tariximizə nə qədər böyük dəyər verdiyini də tələbələrin nəzərinə çatdırdı. O, dedi ki, ***XX əsrin sonlarında Azərbaycanın dövlət müstəqilliyinin qorunması, milli dirçəliş və tərəqqi, ölkədə milli birliyin yaranması, o cümlədən bu gün respublikamızın bütün sahələrində olan inkişaf, beynəlxalq aləmdə qazanılan uğurlar məhz ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Buna görə də hər bir gənc üçün ali məktəbdə təhsil alarkən öz vətəninin tarixini daha dərindən öyrənməsi böyük xoşbəxtlikdir.***

Sözünə davam edən Fəxrəddin müəllim Şimali Azərbaycanın Rusiya tərəfindən işğalı problemini şərh edərkən onun hadisələrə fərqli münasibəti açıq-aşkar hiss olunurdu. O, tələbələrin nəzərinə çatdırdı ki, XIX yüzilliyin əvvəlindən başlanmış və 1828-ci ilə qədər davam etmiş I və II Rus-İran müharibələri əslində Azərbaycan Rusiya müharibələridir. Gəncəli Cavad xanın ruslara qarşı son nəfəsinə qədər müqaviməti, Şamaxı, Quba, Bakı, Naxçıvan, İrəvan xanlıqlarının müqaviməti əsl qəhrəmanlıq nümunələri olub, xalqımızda tarixən azadlıq eşqinin gücündən xəbər verirdi. Cavad xanın dəfn mərasimində qəhrəmanın xanımının söylədiyi nitq, həmin ərəfədə qaniçən Sisianovun əlində siyirmə qılıncla hücumu, Sisianovun məhz Bakı xanı Hüseynqulu xan tərəfindən öldürülməsi, bu səhnənin şahidi olan məşhur rus rəssamı Qaqarin tərəfindən tabloya alınması şəxsən mənim üçün də yeniliklər idi və məlum oldu ki, tarixşünaslığımıza bu yenilikləri gətirən məhz Fəxrəddin Məmmədovun özüdür. Professorun hadisələri ardıcıllıqla, xüsusi şövqlə şərh etməsini tələbələrin diqqət və marağının ona yönəldiyini hiss etməmək mümkün deyildi.

İşğaldan sonra 120 min erməninin İrandan və Türkiyədən məhz rusların əli ilə köçürülüb Cənubi Qafqazda, ələxüsus Dağlıq Qarabağda, İrəvan və Naxçıvan xanlıqları ərazisində məskunlaşdırılması, gələcək bəlaların əsasının qoyulması, tarixən dövlətçilik üzü görməyən bu xalq üçün çarizmin tarixi Azərbaycan torpaqları hesabına "Erməni vilayəti"ni yaratması, xanlıqları ləğv etməklə tarixi dövlətçiliyimiz üzərindən xətt çəkməsi, bu yerlərdə rus canişinlərinin rəhbərliyi ilə komendant üsul idarəsini tətbiq etməsi, onların misli görünməmiş özbaşınalıqları XIX əsr tariximizin faciəli səhifələri idi ki, bütün bunlar ustad dərsi iştirakçılarının böyük marağına səbəb olmaya bilməzdi.

Tələbələrin, ələlxüsus hərbi fakültə tələbələrinin böyük maraqla dinlədiyi problemlərdən biri də XIX əsrin 30-cu illərində çarizmin milli müstəmləkə siyasətinə qarşı xalqımızın ayağa qalxması, 1830-cu ildə Car-Balakən, 1831-ci ildə Lənkəran, 1837-ci ildə Quba, 1838-ci ildə Şəki, 1863-ildə Zaqatala üsyanlarında rus əsgərlərinə qarşı ölüm-dirim savaşına girmələri azman tariximizin əsl qəhrəmanlıq səhifələri idi. Bütün bunları Fəxrəddin müəllim faktlarla şərh edirdi.

Ustad dərsində XIX əsrin birinci yarısında çarizmin öz milli-müstəmləkə mənafeyinə uyğun olaraq Azərbaycanda keçirdiyi bir sıra inzibati-iqtisadi tədbirlərdən də kifayət qədər danışıldı. Maraqlı cəhət burasındadır ki, Azərbaycanda XIX əsrin II yarısında kapitalist münasibətlərinin bərqərar olmasına münasibət əvvəllər birmənalı olmamışdır. Bu məsələyə də ustad dərsində yeni rakursdan yanaşıldı. Belə ki, professor bu problemi tələbələrin nəzərinə çatdırarkən xüsusi vurğuladı ki, qeyd olunan dövrdə XX əsrin ilk 20 ili ərzində Azərbaycanda kapitalist münasibətləri neft sənaye şəhəri olan Bakıda, hətta qəza mərkəzlərində, kəndlərimizdə belə təşəkkül tapmış və inkişaf etmişdir. Fəhlə sinfinin və burjuaziyanın təşəkkülündən danışarkən Fəxrəddin Məmmədov milli burjuaziyanın xeyriyyəçilik və messenantlıq fəaliyyətinə aid dinləyicilərin nəzərinə çoxlu maraqlı faktları çatdıra bildi.

XIX əsr Azərbaycan mədəniyyətindən danışarkən A.Bakıxanov, M.Axundov və M.Vazehin bədii, tarixi və fəlsəfi görüşlərini professor tələbələrə çatdırarkən məndə belə bir yəqinlik hasil oldu ki, Azərbaycan tarixini tədris edənlər tariximizlə yanaşı, ədəbiyyatımızı, mədəniyyət tariximizi, fəlsəfi fikir tariximizi və s. gözəl bilməlidir. Mən bütün bu keyfiyyətləri professor Fəxrəddin Məmmədovda gördüm və keçdiyi ustad dərsindən zövq aldım.

**M.ƏLƏKBƏRLI**

**Mövsüm dəyişdikdə xüsusilə soyuqdəymə, qrip kimi yuxarı tənəffüs yolları infeksiyalarının yarandığı danılmaz bir həqiqətdir. Mütəxəssislər müxtəlif mikrob və virusların, bakteriyaların bu xəstəliklərə səbəb olduğu mövzusunda həmfikirdir. Xüsusilə məktəb, körpələr evi və ofisləri kimi bağlı və yaxşı havalandırılmayan yerlərdə soyuğun bədənin müqavimətini salması keyfiyyətsiz bəslənmə kimi faktorlarla birləşdikdə qış aylarında yuxarı tənəffüs yolu xəstəliklərinin sayı artır. Maddələr mübadiləsi sürətlənir. Bədən toxumalarının dağıdılması artır, dolayısı ilə qida elementlərinin bədəndən xarici də sürətlənir. Zülal, vitamin A, vitamin C, dəmir və sinkin bədəndəki miqdarı azalır. Mütəxəssislər bu kimi halların qarşısının alınmasının ən gözəl yolunun sağlam qida olduğunu vurğulayırlar.**

**Mövsüm dəyişkənliyi zamanı yarana biləcək problemlərin qarşını almaq üçün qadin.net 7 qızıl qayda haqqında məlumat verib.**

# Fəsil dəyişdikdə nə etməli?



**1. İstifadə etdiyiniz qidaları növlərinə görə fərqləndirin**

Heç bir qida təkbaşına bədənin ehtiyacı olan bütün qida elementlərini ehtiva etmir və qida seçərkən müxtəliflik, sağlam bəslənmənin təməli olaraq ifadə edilir. Qidaların hər birinin tərkibində bədənimizə lazım olan müxtəlif elementlər var. Buna görə də hər gün hər pay dörd əsas qida qrupundan (süd və ət məhsulları, yumurta, paxla, tərəvəz və meyvələr, taxıllar) istifadə etmək lazımdır.





**2. Bədəndə güclü müdafiə sistemi üçün zülal qəbul edin**

Ət, yumurta və süd kimi qidalarda digərlərinə görə daha çox zülal var. Bu qrup ayrıca dəmir, sink, fosfor, maqnezium ilə B qrupu vitaminlərindən $B_2$, $B_6$, $B_{12}$ və $B_3$ ilə zəngindir. Xüsusilə heyvani qaynaqlı qidalar olduqları üçün bu qrup dəmir baxımından da çox yaxşı bir qaynaqdır. C vitaminini təmin edən uyğun meyvə-tərəvəz və bunlardan əldə edilən şirə və sulardan istifadə edildikdə bədənin mikroba qarşı müdafiə və müqaviməti artır. Sağlam qidalanmaq üçün həftədə ən azı 2 dəfə dənliu bitkilər və mal ətindən istifadə edilməli, digər paylarda ət yerinə toyuq, hind quşu və balıq yemək məsləhətdir. Xüsusilə beyin, göz, dəri, ürək-damar sisteminin sağlamlığı və bədənin immuniteti üçün həftədə ən azı 2-3 dəfə balıq yeyin.

**3. İmmun sistemini gücləndirən vitaminlərin qəbulu üçün meyvə-tərəvəz yeyin**

Meyvə-tərəvəzlər günlük enerji və protein ehtiyacından əlavə mineral və vitamin baxımından da zəngindir. Tərəvəz və meyvələr böyümə və inkişaf, hüceyrə yenilənməsi, toxuma təmiri, dəri və göz sağlamlığı, diş və diş əti sağlamlığı, qan istehsalı ilə əlaqəli xəstəliklərə qarşı müqavimətin meydana gəlməsində təsirli rol oynayır.

**4. Meyvə-tərəvəzi qatıq , təzə və ya quru meyvələrlə zənginləşdirərək daha çox istifadə edə bilərsiniz**

Küftə, kartof püresi, qarışıq ət növləri, toyuq və makaronun yanında rəndələnmiş, parçalanmış və ya doğranmış dolmalıq balqabaq, ispanaq və ya kök kimi tərəvəzlərin qarnir kimi verilməsi daha yaxşı olar. Sobada bişən xəmir işlərində tərəvəz və meyvələrdən istifadə edin. Evdə hazırladığınız çörəklər, sobada edilən digər xəmir işlərinin tərkibindəki yağın yarısının əvəzinə alma, ərik, banan və şaftalı kimi meyvələrin pürelərindən birini istifadə edə bilərsiniz.

Unutmayın! Sağlam qidalanmaq üçün gündə 2-4 boşqab meyvə, 250 ml meyvə suyu istehlak etmək lazımdır. Bütün bu hazırladığınız qidaların yanında meyvə yemək və ya 100% meyvə suyu içmək faydalıdır. Təkcə meyvə yox, onunla yanaşı gün ərzində meyvə suyu qəbuluna da diqqət edin.

**5. C vitamini ilə zəngin olan sitrus bitkiləri yeyin**

Buraya itburnu, yaşıl yarpaqlı tərəvəzlər, pomidor, çiyələk və kivi də daxildir. Bu tip ərzaqların hazırlanması zamanı isti dəydikcə C vitamininin itkisi baş verir. Araşdırmaların nəticələri C vitamininin sitrus meyvələrdən alınmasının həb şəklində alınan vitaminlərdən daha faydalı olduğunu göstərir. Buna görə də gün ərzində vitamin həbləri əvəzinə C vitamini ilə zəngin qidalar qəbul edin.

**6. Bol maye qəbul edin**

Hər gün ən az 2 - 2,5 litr (8-12 stəkan) su içmək lazımdır. Maye qəbulunun qarşılanmasında süd, ayran və 100% meyvə suyu kimi içkilərin seçilməsi də təklif edilir.

**7 . Fiziki fəaliyyətə laqeyd yanaşmayın**

Qəbul etdiyiniz qidalarla aldığınız kalori və ya enerjini həftənin hər günü 30 dəqiqəlik məşq ilə tarazlayın. Bədən yağındakı artımın yüksək təzyiq, ürək xəstəlikləri, iflic, diabet, bəzi xərçənglər, artrit, tənəffüs problemləri və digər xəstəliklər üçün risk daşıdığını unutmayın.

Xalq təbabəti

# DİABET XƏSTƏLƏRİ ÜÇÜN MƏSLƏHƏT

**Gicitikən cövhəri** şəkər xəstəliyinin dərmanıdır. Yarpağından 50 q yarım litr qaynar suya tökün. Qabın minalı çuğun qazan olması qayğısına qalın, 2 saatdan sonra cövhəri süzün və yeməkdən qabaq çay qaşığı ilə gündə üç dəfə için.



**Lobya dənələrini** avqustda yığır və onların həlimindən istifadə edirlər. 15-20 q 1 litr suda 3-4 saat bişirirlər. Həlimi soyudur və süzürlər, gündə yeməkdən qabaq 3-4 dəfə yarım stəkan içirlər.

**Zəncirotu kökünü** xırdalayın, 1 çay qaşığını 200 q suda dəmləyin. 20 dəqiqə saxlayın, soyudun, süzün. Gündə 3-4 dəfə 50 q için.

**Qoz yarpağını** xırda-xırda doğrayın. Bundan bir xörək qaşığı götürüb 200 q qaynar suya tökün. Bir azca da qaynadıb dəmə qoyun. Gün ərzində için.



**Kəklikotunun** qurusundan bir xörək qaşığını 250 q qaynar suda yarımca dəqiqə qaynadın. Sonra süzün, yeməkdən qabaq günə 3-4 dəfə yarım stəkan için.

**Ağcaqovağın qabığı** şəkərin ilk mərhələsində gözəl dərmandır. Quru qabığın xırdalarından bir xörək qaşığı 2 stəkan suya salın, vam odda 30 dəqiqə qaynadın. Üstünü örtüb 2-3 saat saxlayın, süzün. Yeməkdən qabaq gündə 3 dəfə 40-50 q için. 3 ay və daha çox içmək məsləhətdir.



**Qaragilə yarpağının cövhəri** şəkər xəstəliyinin ilk mərhələsində yaxşı məlhəmdir. Quru yarpaqlardan bir xörək qaşığı 200 q qaynar suya tökün. Üstünü örtüb 30-40 dəqiqə gözləyin, süzün, soyudun. Gündə 3 dəfə stəkanla xırda qurtumlarla için. 3 ayadək və daha çox davam etdirin.

**Qırmızı çuğundurun şirəsini** şəkər xəstəliyində gündə 4 dəfə stəkanla içmək xeyirlidir.

**Pıtraq kökü** - 1 pay, lobya dəni - 1 pay, qaragilə yarpağı - 1 pay. Kütlənin 60 qramını 1 litr soyuq suda 12 saat saxlayın. Süzün və yeməkdən bir saat sonra gündə beş dəfə stəkanla için.

**Qargilə yarpağı** - 1 pay, lobya dəni - 1 pay, kətan toxumu - 1 pay, vələmir samanı - 1 pay. Qarışığın 3 çay qaşığını 3 stəkan suya tökün, 10 dəqiqə qaynadın, üstünü örtüb



30 dəqiqə dəmə qoyun. Gündə 3 dəfə, stəkanla için.

**Qatırquyruğu otu** - 20 q, qızılca otu - 20 q, çiyələk otu 20 q. Qarışıqdan bir xörək qaşığı 200 q qaynar suya tökün. Daha beş dəqiqə qaynadın. 10-15 dəqiqə dəmə qoyun, süzün. Yeməkdən yarım saat əvvəl xörək qaşığı ilə gündə 3-4 dəfə için.

**Qaragilə yarpağı** - 25 q, zəncirotu yarpağı - 25 q, çəpişotu - 20 q. Qarışığın bir xörək qaşığını 300 q qaynar suya salın, 5 dəqiqə qaynadın, dəmləyin, süzün. Yeməkdən 20 dəqiqə qabaq gündə 2-3 dəfə yarım stəkan için.

**İtburnu meyvəsinin həlimi** şəkər xəstəliyinin dərmanıdır.

**Damotu yarpağı** - 10 q, çiyələk yarpağı - 15 q, tut yarpağı - 20 q. Qarışığın bir xörək qaşığını 200 q qaynar suya tökün, 5 dəqiqə təkrar qaynadın. Bir saat saxlayın, süzün. Yeməkdən sonra gündə 3 dəfə 2 xörək qaşığı qəbul edin.

**Mikayıl SƏFƏROV**

# Pis anları unutduran həb kəşf edilib

**Məlumata görə, insanın həyatında dəhşətli anları unutdura biləcək həb hazırlanıb. Elm dünyası ailə içi şiddət də daxil olmaqla şok edici hadisələrdən sonra yaşanan zədəni unutduran bu dərmanla insan sağlamlığının keşiyində dayanmaqdadır.**




Fransanın Tuluza şəhərindəki travmatik stress laboratoriyası tərəfindən inkişaf etdirilən dərman bu cür hadisələrin ardından yaşanan ruhi zədənin yaratdığı stressi yox etdiyi bildirilir. “Propranolol” adı verilən və bu günə qədər miqren müalicəsində istifadə edilən bir molekul sayəsində inkişaf etdirilən bu dərman ağ siçanlar və insanlar üzərində təcrübədən keçirilib. Həmin təcrübələrin müsbət nəticələr verməyə başladığı bildirilir.

Fransanın Tuluza, Kanadanın Montreal və ABŞ-ın Boston şəhərlərində ruhi zədə keçirmiş şəxslər üzərində aparılan müalicə seanslarının müvəffəqiyyətlə nəticələndiyi, seanslar sonra ruhi zədəyə bağlı stressin itdiyi qeyd olunur.

Müalicənin hər birinin 2 saatlıq 6 seans formasında tətbiq olunduğu bildirilir. Həftədə bir dəfə təşkil edilən seansda adama əvvəl “propranolol” həbi verilir.

Həbin bədənə təsiri üçün 90 dəqiqə gözlənildikdən sonra adamın yaşadığı stresə səbəb olan hadisəni bir kağıza yazması tələb olunur.

Araşdırmalar dərman alındıqdan 6 seans sonra adamın yaşadığı stresi böyük ölçüdə azaltdığını, xəstələrin yüzdə 70-nin tamamilə stresdən xilas olduğunu göstərilir.

Mütəxəssislər dərmanın yaşanan hadisənin deyil, bu hadisənin səbəb olduğu stresi aradan qaldırdığını bildirirlər.

# Rus alimlər ömrü uzatmaq üçün yeni dərman hazırlayıblar

**«Ümumilikdə 10 həb hazırlamışıq, bunları hər gün qəbul edən insanın ömrü 120-140 ilə qədər uzanacaq”**



Moskva Fizikotexnika İnstitutu və Roqaçev adına Uşaq Gematologiya Mərkəzinin birlikdə hazırladığı yeni metod insan ömrünü ən azı iki dəfə uzadacaq. Son sınaq mərhələsindən keçməkdə olan yeni ixtiranın bu ilin payızında bütün dünyaya elan edilməsi gözlənilir: “İlk əvvəl insanın gənc və yaşlı hüceyrələrindəki genlərini müqayisə etdik. Sağlam genlərin funksiyasını niyə itirdiklərinin səbəblərini müəyyənləşdirdikdən sonra bu prosesi ləngidən bəzi həblər hazırladıq. Ümumilikdə 10 həb hazırlamışıq. Bunları hər gün qəbul edən insanın ömrü 120-140 ilə qədər uzanacaq” – deyə layihə əməkdaşı Andrey Garaja bildirir. Andrey Garaja hazırladıqları metodun insan ömrünü uzatmaqla yanaşı, həm də üz qırışları, saç və dişlərin tökülməsi kimi prosesləri də ləngidəcəyinə inanır. Rus akademiklərin bu ixtirasının insanlar tərəfindən birmənalı qarşılanmayacağı aşkardır. Ancaq gec qocalmaq istəyənlərə təklif ediləcək olan həblərin nə qədər faydalı olacağı bilinməsə də, ən azından zərərsiz olduğu deyilir.

# Qırmızı turp superməhsul adlandırılmışdır

Uzun sürən qışdan sonra orqanizm öz qüvvələrini bərpa etməlidir. Yazın başlıca problemi avitaminozdur. Qırmızı turpu qida rasionuna əlavə etməklə bunun öhdəsindən çox asanlıqla gəlmək mümkündür.



Dietoloqlar yaz-yay dövründə turpu qida rasionuna daxil etməyi məsləhət görürlər. Qırmızı turp superməhsullar sırasına aid edilə bilər. O, yayın əvvəlində daha faydalı olur.

Durğunluq proseslərində, məsələn, öskürək zamanı bu tərəvəz çox kömək edir. Onun tərkibindəki fitokimyəvi birləşmələr xərçəng əleyhinə təsir göstərir. Qırmızı turpda həmçinin C vitamini, kalium çoxdur. “The Times of India” qəzeti yazır ki, turp təzyiqi aşağı salır, immunitet sistemini fəallaşdırır.

Qırmızı turp sellülozla zəngin olduğu üçün şəkərli xəstələr və mədə-bağırsaq traktı xəstəlikləri olan insanlar üçün əvəzedilməzdir. Özü də bu tərəvəzin kalorisi azdır.

Bundan əlavə qırmızı turpdan kosmetik vasitə, üz üçün maska kimi də istifadə etmək olar. Belə maska üzü çox gözəl təravətləndirir.

AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ
AZƏRBAYCAN TİBB UNİVERSİTETİ

## KAFEDRALAR ÜZRƏ AŞAĞIDAKI YERLƏRİ TUTMAQ ÜÇÜN MÜSABİQƏ ELAN EDİR

### Kafedranın müdiri:

- I cərrahi xəstəliklər kafedrası

### Kafedranın professoru (elmlər doktoru):

- Mikrobiologiya və immunologiya kafedrası - 1 yer

### Kafedraların dosentləri (fəlsəfə doktorları):

- Terapevtik və pediatrik propedevtika kafedrası - 1 yer
- Normal fiziologiya kafedrası - 2 yer
- II mamalıq və ginekologiya kafedrası - 1 yer
- MPF-nin III daxili xəstəliklər kafedrası - 1 yer
- MPF-nin Uşaq xəstəlikləri kafedrası - 2 yer
- Ümumi gigiyena və ekologiya kafedrası - 1 yer
- Ortopedik stomatologiya kafedrası - 1 yer (0,5 vahid )
- Ümumi gigiyena və ekologiya kafedrası - 1 yer
- Uşaq stomatologiyası kafedrası - 1 yer
- Uşaq və yeniyetmələr gigiyenası, əmək gigiyenası kafedrası - 1 yer (0,75 vahid)
- Əczaçılığın təşkili və iqtisadiyyatı kafedrası - 1 yer
- İctimai fənlər kafedrası - 1 yer

### Kafedraların baş müəllimləri:

- Tibbi biologiya və genetika kafedrası - 1 yer
- İnsan anatomiyası kafedrası - 1 yer
- Tibbi fizika və informatika kafedrası - 2 yer
- Mülki Müdafiənin Tibb Xidməti kursu - 1 yer
- Mikrobiologiya və immunologiya kafedrası - 1 yer
- Əczaçılığın texnologiyası, iqtisadiyyatı və təşkili kafedrası - 2 yer
- Azərbaycan dili kafedrası - 1 yer

### Kafedraların assistentləri:

- I mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid )
- I mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid)
- Nevrologiya və tibbi genetika kafedrası - 1 yer (0,5 vahid )
- I daxili xəstəliklər və reanimatologiya kafedrası - 1 yer
- I MPF-nin II daxili xəstəliklər kafedrası - 1 yer
- III cərrahi xəstəliklər kafedrası - 1 yer
- Onkologiya kafedrası - 1 yer (0,5 vahid )
- II mamalıq və ginekologiya kafedrası - 1 yer (0,5 vahid )
- MPF-nin Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,5 vahid )
- MPF-nin Uşaq xəstəlikləri kafedrası - 1 yer (0,75 vahid )
- Bioloji kimya kafedrası - 1 yer (0,5 vahid )
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid )
- Terapevtik stomatologiya kafedrası - 1 yer (0,5 vahid )

### Elmi Tədqiqat Mərkəzi

- 1. Aktiv bioloji maddələrin sintezi şöbəsi:
  *baş elmi işçi - 1 yer*
- 2. Morfologiya və histologiya şöbəsi:
  *şöbə müdiri - 1 yer*
  *baş elmi işçi -1 yer*
- 3. Eksperimental cərrahiyyə şöbəsi:
  *şöbə müdiri - 1 yer*
- 4. Bioloji kimya şöbəsi:
  *şöbə müdiri - 1 yer*
- 5. Bioloji kimya kafedrası üzrə ET Laboratoriyası:
  *böyük elmi işçi - 1 yer*
  *kiçik elmi işçi - 1 yer*
  *kiçik elmi işçi - 1 yer (0,5 vahid)*
- 6. Eksperimental endokrinologiya şöbəsi:
  *kiçik elmi işçi - 1 yer*

**Müsabiqədə iştirak etmək üçün sənədlərin təqdim olunma müddəti elan qəzetdə («Təbib» qəzeti 15 may 2014-cü il) dərc olunduğu gündən 30 gün keçənədəkdir. Sənədlər rektorun adına yazılmış ərizə ilə birlikdə aşağıdakı ünvana təqdim edilməlidir: Bakı şəhəri- Az 1022, Bakıxanov küçəsi 23. Telefon: 597-10-08**

## Avstraliyalı balıqçı tutduğu balığın ağzından gülən qurbağa tapmışdır

Avstraliyalı balıqçı Anqus Ceyms tutduğu balığın ağzında ağac qurbağasını gördükdə heyrətə gəlmişdir. Qurbağa sağ qalmaqla bərabər, həm də gülümsəyirmiş. Qurbağanın vəziyyəti balıqçını mərhəmətə gətirmiş və o, hər iki canlının şəklini çəkdikdən sonra yenidən suya buraxmışdır. Bir neçə gün ərzində həmin şəkil Facebook şəbəkəsində 40 mindən çox səs toplamışdır.

Şimali Kvinslenddən olan balıqçı demişdir ki, o indiyədək heç vaxt belə qəribə hadisə ilə qarşılaşmamışdır.

A.Ceyms demişdir: “Mən çaşıb qalmışdım. Əvvəlcə mənə elə gəldi ki, bu, ot yığınıdır. Amma sonra o gözlərini yumub-açdı və mənə elə gəldi ki, gülümsədi. Yaxşı ki, mənim yanımda kamera var idi. Mən bu cütlüyü buraxmaq qərarına gəldim, amma dostlarıma göstərmək üçün onların şəklini çəkdim”.

Balıqçının heç ağlına belə gəlməzdi ki, xanı balığının ağzındakı qurbağanın şəkli onu bütün dünyada məşhur edəcəkdir. Bir neçə gün ərzində dünyanın bir çox ölkələrindən iki mindən çox insan şəklə rəy bildirmişdir. İnsanlara ən çox xoş gələn balıqçının humanizm nümayiş etdirərək şirin cütlüyü azadlığa buraxması olmuşdur.

## Gələcəyin telefonları spirtlə işləyəcək

**Finlandiyanın Aalto Universitetinin mühəndisi Canmarino Skotti elektrik enerjisini müxtəlif yanacaq materiallarından – maye hidrogen, etanol və metanoldan hasil edən kiçik və səmərəli yanacaq dəliyi hazırlamışdır.**




C.Skotti doktorluq dissertasiyasında yanacaq dəliklərinin sənaye istehsalının çox qənaətcil texnoloji prosesini təsvir edir. Bu onu deməyə əsas verir ki, yanacaq dəliklərinin kütləvi istehsalına ən yaxın vaxtlarda başlanılacaqdır.

Dəliklərin hər biri səthi olmaqla qalınlığı təxminən bir millimetr, ölçüsü isə 14x14 millimetr təşkil edir. Lazım olduqda onları bir-birinə calamaq və bir massivdə qruplaşdırmaq mümkündür. Dəliklərdən biri spirtlə doldurulduqda 0,5 vatt, maye hidrogenlə doldurulduqda 1 vatt gərginliyində cərəyan ötürür. Telefon üçün bir neçə yanacaq dəliyi yetərlidir və bu halda onlar müasir akkumulyatorlarla müqayisədə daha az yer tutacaqdır. Ən əsası isə odur ki, istifadəçi telefonu istənilən mağazada bir neçə saniyəyə enerji ilə doldura biləcəkdir.

AzərTAc xakep.ru saytına istinadən xəbər verir ki, C.Skotti miniatür ölçülü yanacaq dəliklərinin istehsalının ucuz başa gəlməsi üçün bir neçə üsul təklif edir. Birincisi, silisium korpusu daha ucuz alüminiumla əvəz etməkdir. Bundan başqa, mühəndis dəliklərin istehsalı üçün lazer ablasiyasından – maddənin səthdən lazer impulsu ilə təmizlənməsindən istifadə etməklə daha effektiv üsullar kəşf etmişdir.

Alimin proqnozlarına əsasən, spirtlə işləyən ilk mobil telefonlar yaxın onillikdə satışa çıxarıla bilər. Hələ bəzi kiçik problem həll olunmalı, yanacaq dəliklərinin doldurulması üsulları tapılmalı və onlar hava çirkləndirməsindən mühafizə edilməlidir. C.Skotti əmindir ki, miniatür yanacaq dəlikləri daha çox kosmonavtika sahəsində tətbiq olunacaqdır.

## Zirvə

Haqqla, ədalət ilə yenilməz dövlət quran,
Gənclərə dəstək olub, hər kəsə örnək olan.
Bizi xoş sabahlara, xoş günlərə çıxaran,
Qəlbimizdə yaşayır xatirən, Heydər babam.

Yurdumuzun hər qarış torpağını qoruyan,
Sülhü tərənnüm edib, dostluğa imza atan.
Əzmin, müdrikliyinlə qüdrətli dövlət quran,
Güllü-gülüstan olub yurdumuz Azərbaycan.

Başını uca tutub qoruyan bizi hər an,
Ömrünün hər gününü xalqı üçün yaşayan.
Üç rəngli bayrağını zirvələrə ucaldan,
Zirvələrdən də uca zirvəsən, Heydər babam.

**Jalə ƏLIYEVA,**
*Elmi-Tədqiqat Mamalıq və Ginekologiya İnstitunun əməkdaşı*

## Alimlər Peruda təqribən 2500 il bundan əvvəl tikilmiş astronomiya kompleksi aşkar etmişlər



Alimlər Peru ərazisində, Çinça-Alta şəhəri rayonunda təqribən iki min il bundan əvvəl tikilmiş qədim astronomiya kompleksi aşkar etmişlər.

Kaliforniya ştatı Universitetindən olan tədqiqatçı Çarlz Staniş başda olmaqla beynəlxalq arxeoloqlar qrupu 71 geoqlif xətti (Yerdə həndəsi və fiqurlu naxış) qeydə almışdır.

Alimlər müəyyən etmişlər ki, Yeni dünyanın yerli sakinləri bu tikililərdən astronomiya məqsədləri üçün istifadə edirmişlər. Düz xətlərin bəzisi cənub yarımkürəsində yay gündönümü nöqtəsinə yönəlmişdir. Arxeoloqların ehtimalına görə, kompleks bir növ rəsədxana rolunu oynamış və eyni zamanda ibadət obyekti olmuşdur. Ç.Stanişin fikrincə, belə tikilinin ucaldılması qədim insanlardan elə bir xüsusi bilik və böyük səy tələb etməmişdir.

Arxeoloqlar hesab edirlər ki, onların 40 kvadrat kilometrlik sahədə aşkar etdikləri yerüstü naxışlar Parakas mədəniyyətinin sonrakı mərhələsinə (eramızdan təqribən 400-100 il əvvələ) aiddir. Fərziyyələrə görə, orada yaşamış insanlar hələ eramızdan min il əvvəl istehsalın və ictimai münasibətlərin yetərincə yüksək səviyyəsinə nail ola bilmişlər.

### Etibarsız sayılır

Tibbi profilaktika fakültəsinin III kurs, $630^a$ qrup tələbəsi Qədirova Gülnur Məmməd qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, $101^b$ qrup tələbəsi Nəsirli Namiq Zülfüqar oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin VI kurs, $36^b$ qrup tələbəsi Hüseynli Tural Polad oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin III kurs, $345^a$ qrup tələbəsi Rzayev Məmməd Nizami oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin VI kurs, $242^a$ qrup tələbəsi Mirzəyev Afiq Malik oğlunun adına verilmiş qiymət kitabçası itdiyi üçün etibarsız sayılır.

Sultanov İsmayıl Yusif oğluna 1990-cı ildə Azərbaycan Tibb Universiteti tərəfindən pediatr ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əskərova Günel Ehtiyat qızına 2006-cı ildə Azərbaycan Tibb Universiteti tərəfindən terapevt ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Şıxəliyev Seymur Şahmar oğluna 1998-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən ftiziatr-pulmonoloq ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet “Təbib” qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, “Bəxtiyar-4” İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - 100
2-ci mərtəbə,
tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya N - 022633
İndeks -0269
Sayı 4000
Sifariş: 149